# QARABAĞDA BİOMÜXTƏLİFLİYİN QORUNMASI

**ARAŞDIRMA:**

*Bildiyiniz kimi, XXI əsrdə ekoloji tarazlığın qorunub saxlanması ümumbəşəri problemdir. Dünyanı narahat edən qlobal problemlər sırasında atmosfer havasının çirklənməsi, iqlim dəyişikliyi, içməli su ehtiyatlarının, biomüxtəlifliyin getdikcə azalması və digər məsələlər xüsusi önəm daşıyır.*

***Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması məsələlərinə xüsusi diqqət yetirilir. Bu məqsədlə Azərbaycanda nə kimi tədbirlər həyata keçirilir?***

Azərbaycanın ən qədim və səfalı guşələrindən biri olan Qarabağ dünyada çox nadir və təkrarolunmaz iqlimə, bitki örtüyünə və heyvanlar aləminə malikdir. Burada Hirkan şümşadı, Qafqaz xədicəgülü, gözəl təkəsaqqal, ayı fındığı, adi şabalıd, Şərq çinarı, sağsağan gülxətmisi, Qarabağ dağlaləsi, qaya dovşanalması, təkdənli buğda və s. kimi bitki, çöl qartalı, qara leylək, Qafqaz meşəpişiyi, qonur ayı, göl qurbağası, Xəzər tısbağası, qonur ilan, daxili su hövzələrində çay foreli, Kür qızılbalığı, adi yastıqarın və s. kimi heyvan növləri yayılmışdır. Bu növlərdən nadir və nəsli kəsilmək təhlükəsi olanların adları Azərbaycanın "Qırmızı kitab"ına salınmışdır.



*Qafqaz xədicəgülü*



*Xarıbülbül*



*Şərq çinarı*



*Qafqaz meşəpişiyi*



*Qonur ayı*



*Qafqaz kələzi*



*Qaya dovşanalması*

## TAPŞIRIQ:

*Adları Azərbaycanın "Qırmızı kitab"ına salınmış hansı bitki və heyvan növlərini tanıyırsınız?*

Çox təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji terror baş vermiş, Qarabağ və ətraf ərazilərin təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə ciddi ziyan dəymişdir. Təbii sərvətlər talan olunmuş, meşə örtüyü, flora və faunanın bir çox növləri məhv edilmiş, ətraf mühit çirklənməyə məruz qalmışdır. Bu ərazilərdən keçən təbii su mənbələrimiz – Oxçuçay, Ağstafaçay, Bərgüşad çayı, Həkəriçay və digərləri sənaye və məişət-çirkab suları ilə çirklənmiş, bəzi çayların yataqları dəyişdirilmiş, şirin su hövzələrində yayılan zəngin balıq növləri talan olunmuş, kimyəvi maddələrlə kütləvi şəkildə məhv edilmişdir.

Bütün bu qanunauyğunsuzluqlar 1951-ci ildə Orxuskaya, 1971-ci ildə Ramsar, 1995-ci ildə Pan-Evropa (Bolqarıstan), 1992-ci ildə BMT-də "Yerin flora və faunasının genofondunun saxlanılması və bitkilərin mühafizəsi" proqramı çərçivəsində keçirilən beynəlxalq konvensiyalara ziddir.

**DİQQƏT!** *Zəngilan rayonunda yaşı 250 il olan 1 ədəd dağdağan, yaşı 120 və 300 il olan 2 ədəd Şərq çinarı, yaşı 160 il olan 1 ədəd palıd ağacı sənədləşdirilərək qorunurdu. Ərazidə eyni zamanda meşə gilası, Zəngilan gəvəni, ağac gəndalaş, meşə üzümü, xarıbülbül, Qarabağ dağlaləsi və sağsağan gülxətmisi kimi nadir bitkilər geniş yayılmışdı.*

Azərbaycan Respublikası ekoloji mühitin sağlamlaşdırılmasını strateji məqsəd sayır. Canlıların nadir növlərinin qorunub saxlanılması məqsədilə ölkə ərazisində dövlət qoruqları, dövlət təbiət yasaqlıqları, milli parklar təşkil edilir. Bu qoruqların, yasaqlıqların bir qismi vaxtilə Qarabağ və ətraf ərazilərdəki heyvan növlərini, bitki örtüyünü, nadir ağac növlərini qorumaq məqsədilə yaradılmışdı. Bəsitçay Dövlət Təbiət Qoruğu, Qaragöl Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Laçın Dövlət Təbiət Yasaqlığı, Qubadlı Dövlət Təbiət Yasaqlığı və Daşaltı Dövlət Təbiət Yasaqlığı Qarabağ və ətraf əraziləri əhatə edir.

***Bəsitçay Dövlət Təbiət Qoruğu*** – Zəngilan rayonu ərazisində yerləşir. O, respublika qoruqlarının ən kiçiyidir. Qoruq ərazinin landşaftını, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir. Burada həmçinin qoz, dağdağan, tut, söyüd, qovaq və s. ağac, yemişan, itburnu, murdarça, qaratikan və s. kollar yetişir. Qoruğun ətraf sahələrində, bəzən də özündə canavar, çöldonuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmiricilər və s. məməlilərə, kəklik, turac, göyərçin və s. quşlara rast gəlinir.

***Qaragöl Dövlət Təbiət Qoruğu*** – Azərbaycan Respublikasının Laçın rayonu ilə Ermənistan Respublikasının Gorus rayonunun sərhədində yerləşir; sərhəd gölü hesab edilir. Qoruğun bitki örtüyü zəngin deyil. Burada üçyarpaq yoncanın, şərq hissəsində gəvənin üstünlük təşkil etdiyi çəmənliklər inkişaf edir. Gölün suyunda zooplanktonlara, dibində isə yanüzənlərə rast gəlinir.

***Arazboyu Dövlət Təbiət Yasaqlığı*** – Zəngilan rayonunun İranla sərhədində, Araz çayı sahilində Tuqay meşələrinin qorunması və bərpası məqsədilə yaradılmışdır. İşğaldan qabaq burada tülkü, çaqqal, canavar, porsuq, cüyür, turac, qırqovul, kəklik, bildirçin və s. heyvanlar yayılmışdı.

***Laçın Dövlət Təbiət Yasaqlığı*** – Laçın rayonunun ərazisində yaradılmışdır. Yasaqlığın ərazisində cüyür, qayakeçisi, çöldonuzu, turac, dovşan, canavar, porsuq, dələ, ayı, bildirçin, alabaxta, kəklik kimi heyvan növləri, vələs, cökə, ağcaqayın, palıd meşələri vardır.

***Qubadlı Dövlət Təbiət Yasaqlığı*** – Qubadlı və Laçın rayonlarının ərazisində yaradılmışdır. Yasaqlığın yaradılmasında əsas məqsəd həmin ərazilərin heyvanlar aləmini (cüyür, çöldonuzu, qırqovul) qorumaqdır. Bu ərazidə qonur ayı, canavar, çaqqal, tülkü, dovşan, porsuq, kəklik, qırqovul, turac, bildirçin yayılmışdır. Buradakı seyrək meşəliklər və kolluqlarda palıd, vələs, ardıc, yemişan, itburnu, böyürtkən yetişir.

***Daşaltı Dövlət Təbiət Yasaqlığı*** – Şuşa şəhərinin ətrafında yaradılmışdır. Yasaqlığın ərazisi meşə, kol və ot bitkiləri ilə zəngindir. Burada palıd, vələs, ağcaqayın, cökə, göyrüş, yemişan, itburnu, zoğal, əzgil, alma, armud, alça və s. bitkilər yetişir. Yasaqlıq ərazisində cüyür, dələ, dovşan, canavar, çaqqal və s. heyvanlar məskunlaşmışdır.

Qeyd edək ki, Qaragöl Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Laçın Dövlət Təbiət Yasaqlığı, Qubadlı Dövlət Təbiət Yasaqlığı, Daşaltı Dövlət Təbiət Yasaqlığı uzun illər işğal altında olduğundan onların fəaliyyəti tamamilə dayandırılmışdır.

Xüsusi qorunan ərazilər vəhşi təbiətin toxunulmaz bir hissəsi olmasına baxmayaraq, uzun illər erməni işğalçıları tərəfindən talan edilmiş, mədəni abidələr dağıdılmış, flora və faunanın bir çox növləri məhv edilmişdir. Nəhayət, II Qarabağ müharibəsi zamanı Qarabağ və ətraf ərazilər işğaldan azad olunmuşdur. İnanırıq ki, yaxın gələcəkdə ekoloji terrora məruz qalan bu ərazilərin canlılar aləminin bərpasına nail olunacaqdır.

Hazırladı: Nüşabə Məmmədova
Könül Mahmudova